# AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli:

## Sənin yazılarını həmişə “Kredo” qəzetindən oxuyuram”






23 aprel 2022-ci il tarixində Abşeron Rayon İcra Hakimiyyəti, “Hədəf” Nəşrləri, “Azərbaycan Nəşriyyatları Assosiasiyası” İctimai Birliyinin təşkilatçılığı ilə Xırdalan şəhərində yerləşən Heydər Əliyev parkında “Oxu Günü-8” adlı tədbir keçirildi.

Tədbirdə Abşeron Təhsil Şöbəsini təmsil edənlərdən biri də mən idim.

Tədbirdə Abşeron İcra Hakimiyyəti başçısı hörmətli Abdin Fərzəliyev, AMEA-nınvitse-prezidenti, akademik İsa Həbibbəyli, hörmətli millət vəkilimiz Aqil Abbas, “Hədəf” Nəşrlərinin rəhbəri Şəmil Sadiq, “Qanun” nəşriyyatının rəhbəri Şahbaz Xuduoğlu və s. dəyərli ziyalılarımız iştirak edirdilər.

Abşeron RİH başçısı hörmətli Abdin Fərzəliyev kitablarımın sərgiləndiyi stendə doğru yaxınlaşdı və mənimlə yaxından maraqlandı, müəllifi olduğum kitablarıma baxdı. Mənə uğurlar arzu etdi. Onu da qeyd edim ki, hörmətli Abdin müəllim mart ayında Novruz bayramı münasibəti ilə Abşeron rayonunda keçirilən tədbirdə də eyni səmimiliklə mənimlə görüşərək yaradıcılığımla maraqlanmışdır.

Elə həmin vaxt görkəmli alimimiz İsa Həbibbəyli də kitablarımın sərgiləndiyi stendə yaxınlaşdı və mənimlə salamlaşdı. Dedi ki, “Sənin yazılarını həmişə “Kredo” qəzetindən oxuyuram”. Bildirdi ki, o, məni uzun müddət “Kredo” qəzeti vasitəsilə izləyir və məqalələrimi böyük maraqla oxuyur. İsa müəllim mənə təhsildə və yaradıcılığımda uğurlar arzuladı. Mən bildirdim ki, biz gənclər sizin kimi görkəmli alimlərimizi özümüzə nümunə bilirik. İsa müəllim də bildirdi ki, biz də səni gənclərimizə nümunə göstəririk. Onun yanında nəvələri də var idi. İsa müəllim məni nəvələri ilə görüşdürdü və mənim yaradıcılığım, ictimai fəaliyyətim barədə onlara məlumat verdi, məni onlarla tanış etdi. Bir görkəmli alimdən gördüyüm hörmət və dəyər məni olduqca sevindirmiş, mənə böyük stimul vermişdi. Bir daha hörmətli İsa müəllimə dərin minnətdarlığımı bildirirəm. Allah onu elmimizə və bizim kimi gənclərə çox görməsin! Amin!

Tədbirin gedişi zamanıAbşeron RİH başçısı hörmətli Abidin müəllimə “Dünyamsan, Azərbaycan”, “Könüllərə yol gəzirəm” adlı kitablarımı, hörmətli İsamüəllimə “Möhtəşəm ZəfərinNişanəsi” adlı kitabımı, hörmətli Aqilmüəllimə isə “Dünyamsan,Azərbaycan” və “Ulu Naxçıvanım” adlı kitablarımı hədiyyə etdim.

Həmçinin tədbirə apardığım müəllifi olduğum kitablarımı və “Kredo” qəzetində dərc olunmuş məqalələrimi tədbir iştirakçılarına hədiyyə etdim.

Çox dəyərli tədbir idi. Məni ən çox sevindirən isə hörmətli İsa müəllimin “Sənin yazılarını həmişə “Kredo” qəzetindən oxuyuram” deməsi oldu. Bu sözlər mənim məsuliyyətimi daha da artırdı.

Vətənimlə və Vətənimin biz gənclərə dəyər verən ziyalıları ilə fəxr edirəm!

***Sevindik* Nəsiboğlu**
***8-ci sinif şagirdi, şair-publisist,***
–
***23.04.2022.***